# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ

## ƏMR

№ 114

**Bakı şəhəri** "15" avqust 2013-cü il

**ARDNŞ-nin şirkətdaxili standartlarının təsdiq edilməsi barədə**

Məsləhətçi şirkəti cəlb etməklə hazırlanmış standart sənədlərin layihələrinin aidiyyəti struktur bölmələri ilə razılaşdırılmasını nəzərə alaraq, fəaliyyət sahəsinin prioritet istiqamətləri üzrə beynəlxalq təcrübəyə uyğun olaraq, ARDNŞ-nin standartlar sisteminin formalaşdırılması sahəsində müsbət tendensiyanı inkişaf etdirmək məqsədilə

**əmr edirəm:**

1. "ARDNŞ-nin strukturuna daxil olan qurumların balansında olan yararsız hala düşmüş, həmçinin oğurlanmış və ya naməlum şəraitdə itmiş əsas vəsaitlərin (fondların) silinməsi və bu vəsaitlərin söküntüsündən əldə edilən material qiymətlilərinin satışı (SOCARSS – 004.2013)" standartı təsdiq edilsin (Əlavə I).

2. "ARDNŞ-nin strukturuna daxil olan qurumlar arasında əsas vəsaitlərin balansdan-balansa verilməsi (SOCARSS – 005.2013)" standartı təsdiq edilsin (Əlavə II).

3. "SOCARSS – 004 .2013" standartının 01.2-ci bəndində nəzərdə tutulmuş məsul qurumun səlahiyyətləri ARDNŞ-nin 08.12.2004-cü il tarixli 125 nömrəli əmri ilə yaradılmış Mərkəzi ləğvetmə komissiyasına həvalə edilsin.

4. "SOCARSS – 005.2012" standartının 01.4 və 01.6-cı bəndlərində nəzərdə tutulmuş "müvafiq struktur bölmənin" səlahiyyətləri ARDNŞ-nin Baş ofisinin İqtisadiyyat və Uçot İdarəsinin Əsaslı fondların idarə edilməsi şöbəsinə həvalə edilsin.

5. ARDNŞ-nin Baş ofisinin Hüquq İdarəsinə (E.Orucov) tapşırılsın ki, standartların kağız variantlarda qeydiyyatının aparılmasını, saxlanılmasını təmin etsin.

6. ARDNŞ-nin Baş ofisinin İnformasiya Texnologiyaları Departamentinə (İ.Aslanov) tapşırılsın ki, bu əmrlə təsdiq edilmiş standartları ARDNŞ-nin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

7. Bu əmrin icrasına nəzarət ARDNŞ-nin vitse-prezidenti M.İsmayılova həvalə edilsin.

**Prezident** **Rövnəq Abdullayev**

ƏSLİ İLƏ DÜZDÜR
Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin rəisi
N.Səmədova
"15" 08 2013 il

*Əlavə 1*
*Azərbaycan Respublikası Dövlət Neft*
*Şirkətinin 15 08 2013-cü il tarixli,*
*114 nömrəli əmri ilə*
*təsdiq edilmişdir*

SOCAR

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin standartlaşma sistemi.**
**ARDNŞ-nin strukturuna daxil olan qurumların balansında olan yararsız hala düşmüş, həmçinin oğurlanmış və ya naməlum şəraitdə itmiş əsas vəsaitlərin (fondların) silinməsi və bu vəsaitlərin söküntüsündən əldə edilən material qiymətlilərinin satışı**
(SOCARSS – 004.2013)

---

**01.1. Standartlaşmanın məqsədi** – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) strukturuna daxil olan qurumların (bundan sonra müəssisə adlanacaq) balansında olan yararsız hala düşmüş, həmçinin oğurlanmış və ya naməlum şəraitdə itmiş əsas vəsaitlərin (fondların) silinməsi və bu vəsaitlərin söküntüsündən əldə edilən material qiymətlilərinin satışı qaydalarını müəyyən edir.

**01.2. Məsul qurum** – ARDNŞ-nin prezidentinin əmri ilə müəyyən edilir.

**01.3. Yararsız hala düşmüş əsas vəsaitlərin (fondların) silinməsi:**

1.1 ARDNŞ-nin strukturuna daxil olan müəssisələrdə iqtisadi baxımdan məqsədyönlü sayılmayan, təmiri və ya bərpası səmərəsiz hesab edilən, əvəzsiz olaraq verilməsi və satılması mümkün olmayan əsas vəsaitlərin (fondların) tərkibinə daxil olan fiziki cəhətdən tam köhnəlmiş (aşınmış), fiziki və ya mənəvi cəhətdən istifadəyə yararsız hala düşmüş binalar, qurğular, ötürücü qurğular, maşınlar və avadanlıqlar, nəqliyyat vasitələri, istehsalat alətləri (ləvazimatları), təsərrüfat inventarları və digər əsas vəsaitlər (fondlar), eyni zamanda yeni obyektlərin tikintisi ilə əlaqədar olaraq uçurulmuş binalar və qurğular, təbii fəlakət zamanı dağılmış, həmçinin oğurlanmış və ya naməlum şəraitdə itmiş əsas vəsaitlər (fondlar) qanunlara zidd olmadan bu standart əsasında ləğv edilərək balansdan silinir.

1.2. Yararsız hala düşmüş əsas vəsaitlərin (fondların) istifadəyə yararsızlığını, təmirinin mümkünsüzlüyünü müəyyənləşdirmək və onların müəyyən olunmuş qaydada balansdan silinməsi üçün müəssisə rəhbərinin əmri ilə ən azı 5 (beş) nəfərdən ibarət müvafiq ləğvetmə komissiyası yaradılır. Həmin komissiyanın tərkibinə müəssisə rəhbərinin müavini, İqtisadiyyat və Uçot İdarəsinin (departamentinin) rəisi-baş mühasibi, habelə müəssisənin aidiyyəti struktur bölmələrinin rəhbərləri daxil edilir. Komissiyanın sədri-müəssisə rəhbərinin müavini, sədrin müavini isə İqtisadiyyat və Uçot İdarəsinin (departamentinin) rəisi-baş mühasib olmalıdır.
Komissiyanın tərkibinə müvafiq qaydada razılaşdırmaqla ARDNŞ-nin Baş ofisinin nümayəndəsi də daxil edilə bilər. Komissiya öz işinə müstəqil qiymətləndirici, auditor və digər mütəxəssisləri cəlb etmək hüququna malikdir.

1.3. Əsas vəsaitlərin (fondların) silinməsi üzrə komissiyanın vəzifələri aşağıdakılardan ibarətdir:

- müəssisənin balansından silinməli olan əsas vəsaitlərin (fondların) texniki baxışını keçirmək və yararsızlığını müəyyən etmək;
- müəssisənin balansında olan yararsız hesab edilən əsas vəsaitlərin (fondların) miqdarını və mövcudluğunu müəyyən etmək;
- əsas vəsaitlərin (fondların) balansdan silinməsi zərurətini yaradan səbəbləri (köhnəlmə, normal istismar şərtlərinin pozulması nəticəsində vaxtından əvvəl sıradançıxma, başqa qurumlarda istifadə imkanları, təbii fəlakət, qəza) araşdırmaq;
- balansdan silinən əsas vəsaitlərin (fondların) ayrı-ayrı hissələrinin, detallarının və digər materialların mövcudluğunu, miqdarını və istifadəyə yararlığını müəyyən etmək, onları bazar dəyəri ilə qiymətləndirmək;
- əsas vəsaitlərin (fondların) silinməsi üzrə müəssisənin mühasibat uçotu sənədləri, o cümlədən əmlakın inventarizasiyasına dair sənədlər, texniki pasport, qüsur (defekt) aktı, inventarizasiya komissiyasının rəyi əsasında əsas vəsaitlərin (fondların) silinməsi barədə əmlakın (qiymətlilərin) ləğvi aktını (aktın nümunəvi formaları bu standartın 1 və 2 nömrəli əlavələrində verilir) tərtib edir;
- oğurlanmış və ya naməlum şəraitdə itmiş əsas vəsaitlər (fondlar) üzrə müəssisənin mühasibat uçotu sənədləri, o cümlədən əmlakın inventarizasiyasına dair sənədlər, texniki pasport, əsas vəsaitin (fondun) oğurlanması və ya naməlum şəraitdə itməsi ilə bağlı

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, nəqliyyat vasitələri üzrə isə əlavə olaraq Baş Dövlət Yol Polisi İdarəsinin təsdiqedici sənədi və inventarizasiya komissiyasının rəyi əsasında əsas vəsaitlərin (fondların) uçotdan (balansdan) çıxarılması aktını (aktın nümunəvi forması bu standartın 3 nömrəli əlavəsində verilir) tərtib etmək.

1.4. ARDNŞ-nin strukturuna daxil olan müəssisələrin balansından silinməli olan əsas vəsaitlərin (fondların) ilkin balans dəyəri Maliyyə Hesabatının Beynəlxalq Standartlarına uyğun olaraq müəyən edilir.

1.5. Vahidinin (dəstinin) ilkin balans dəyəri 5000 (beş min) manata qədər olan əsas vəsaitlər (fondlar) müəssisədə yaradılmış ləğvetmə komissiyasının qərarı nəzərə alınmaqla müəssisə rəhbərinin müvafiq qərarı əsasında müəssisənin balansından silinir. Əmlakın (qiymətlilərin) ləğvi aktları müəssisənin rəhbəri tərəfindən təsdiq edilir.

1.6. Vahidinin (dəstinin) ilkin balans dəyəri 5000 (beş min) manatdan yuxarı olan əsas, o cümlədən xüsusi əhəmiyyətli vəsaitlər (fondlar) Mərkəzi ləğvetmə komissiyasının qərarı nəzərə alınmaqla ARDNŞ-nin prezidentinin müvafiq sərəncamına əsasən müəssisənin balansından silinir. Əmlakın (qiymətlilərin) ləğvi aktları ARDNŞ-nin sahə üzrə vitse-prezidenti tərəfindən təsdiq edilir.

1.7. Əsas vəsaitlərin (fondların) ləğvi barədə komissiyanın tərtib etdiyi akt bu standartın tələblərinə əsasən ARDNŞ-nin sahə üzrə vitse-prezidenti və ya müəssisənin rəhbəri tərəfindən təsdiq edildikdən sonra həmin əsas vəsaitlər sökülə, hissələrə ayrıla və hesabdan silinə bilər.
Komissiyanın aktı müvafiq qaydada təsdiq edilməyənədək obyektin sökülməsinə, ləğv edilməsinə və hesabdan silinməsinə yol verilmir.

1.8. Avtomobil nəqliyyatı vasitələri (xüsusi texnika) üzrə əsas vəsaitlərin (fondların) müəssisənin balansından silinməsi bütün hallarda (o cümlədən, bu standartın 1.5-ci bəndində nəzərdə tutulan hallarda da) ARDNŞ-nin prezidentinin sərəncamı əsasında həyata keçirilir.

1.9. ARDNŞ-nin strukturuna daxil olan müəssisələrin balansından əsas vəsaitlərin (fondların) bu standartın 1.6 və 1.8-ci bəndləində göstərilmiş hallarda silinməsinə dair məsələyə baxılması üçün Baş ofisdə yaradılmış Mərkəzi

ləğvetmə komissiyasına həmin müəssisələr tərəfindən aşağıdakı sənədlər təqdim edilməlidir:

- müəssisənin müraciəti;
- əsas vəsaitlərin (fondların) silinməsi üzrə komissiyanın yaradılması barədə müəssisə rəhbəri tərəfindən verilmiş əmrin surəti;
- müvafiq qaydada tərtib edilmiş əsas vəsaitlərin (fondların) ləğvi aktları;
- əsas vəsaitlərin (fondların) balansdan silinməsi barədə ləğvetmə komisiyasının rəyi;
- əsas vəsaitlərin silinməsinə dair digər sənədlər (texniki pasport, qüsur aktı, səlahiyyətli dövlət təşkilatlarının və inventarizasiya komissiyasının rəyləri).

1.10. Təqdim edilmiş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, bu barədə Mərkəzi ləğvetmə komissiyası tərəfindən müəssisələrə müvafiq olaraq bildiriş göndərilir.

1.11. Oğurlanmış və ya naməlum şəraitdə itmiş əsas vəsaitlər (fondlar) 10 (on) il müddətində tapılmadıqda və ya aparılmış əməliyyat-axtarış tədbirləri heç bir nəticə vermədikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, nəqliyyat vasitələri üzrə isə əlavə olaraq Baş Dövlət Yol Polisi İdarəsinin bu barədə məlumatı nəzərə alınmaqla, həmin əsas vəsaitlər (fondlar) ARDNŞ-nin prezidentinin sərəncamı əsasında müəsisənin balansından silinir.

1.12. Mövcud qanunvericiliyə əsasən ayrı-ayrı əmlak növlərinin qeydiyyatını və istismarına nəzarəti həyata keçirən dövlət orqanları bu növ əsas vəsaitlərin (fondların) silinməsi barədə müəssisə tərəfindən müvafiq qaydada məlumatlandırılmalıdırlar.

## 01.4. Əsas vəsaitlərin (fondların) söküntüsündən əldə edilən material qiymətlilərinin satışı

1.1. Əsas vəsaitlərin silinməsi nəticəsində onların söküntüsündən əldə edilən mal-materiallar, o cümlədən yararlı ehtiyat hissələri, detallar, aqreqatlar, əlvan və qara metal qırıntıları, digər materiallar cari bazar dəyəri ilə bu standartın 1.2-ci bəndinə əsasən yaradılmış komissiya tərəfindən müstəqil qiymətləndirici cəlb edilməklə qiymətləndirilərək mədaxil edilməklə müvafiq qaydada uçota alınır.

1.2. Satışa yararlı olmayan material qiymətliləri komissiya tərəfindən məhv edilir və müvafiq aktla rəsmiləşdirilir.

1.3. Əsas vəsaitlərin (fondların) söküntüsündən əldə edilən material qiymətlilərinin satışından daxil olan vəsaitlər müəssisənin gəlirinə aid edilir.

"SOCARSS - 004 .2013"
standart sənədə Əlavə 1

______________________________
*(müəssisənin, idarənin və təşkilatın adı)*

**«Təsdiq edirəm»**

______________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

______________________________
*(imza)*

« _____» ____________ 20__ il

**ƏMLAKIN (QİYMƏTLİLƏRİN) LƏĞVİ AKTI**

«______»___________ 20__ il

__________________________________________________________
*(müəsssənin, idarənin, təşkilatın adı)*

Əmlakın (qiymətlilərin) istismar vəziyyətini müəyyən etmək üçün «___»________ 20___ il tarixli _____ №-li əmrlə təyin edilmiş daim fəaliyyətdə olan komissiya üzvləri:

Sədr ______________________________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

Üzvlər ______________________________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

______________________________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

______________________________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

______________________________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

______________________________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

Maddi-məsul şəxs ______________________________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

______________________________________________ öhdəsində olan aşağıdakı

əsas vəsaitlərin (fondların) istismar vəziyyətini yoxladıq.

| Sıra №-si | Əmlakın (qiymətlilərin) adı və nişanələri | SAP kodu (inventar nömrəsi) | İstismar müddəti | Ölçü vahidi | Miqdarı | Qiyməti, manat | Məbləği, manat | Yararsızlığın səbəbi |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | Yekunu | | | | | | | |

Məbləğ ______________________________________________

*(yazı ilə)*

Yuxarıda göstərilən əsas vəsaitlərin (fondların) istismar vəziyyətini yoxlayarkan, komissiya belə qərara gəldi ki, bu əmlaklar (qiymətlilər) köhnəlmiş, istismar müddətini bitirmiş, tamamilə yararsız hala düşmüş və gələcəkdə istifadəsi mümkün olmadığı üçün ləğv edilsin və maddi-məsul şəxsin öhdəsindən silinsin.

Silinən əsas vəsaitlərin (fondların) tərkibi: qızıl _____ kq, gümüş ______ kq, platin _____ kq, əlvan metal _______ kq, qara metal ______ kq, cında ____ kq, yanacaq (odun) _______ kub metr, ehtiyat hissələri _______ ədəd.

Qəbul-təhvil qaimələri akta əlavə edilir.

Əlavə qeyd ______________________________________________

*Qeyd:* Akt üç nüsxədən ibarət tərtib edilir və birinci nüsxə mühasibatlığa təhvil verilir.

Vahidinin (dəstinin) ilkin balans dəyərindən asılı olmayaraq əsas vəsaitlər (beş min manatdan yuxarı olduğu halda ARDNŞ-nin sərəncamı əsasında) bu aktla silinir.

Əsas vəsaitlərin ləğvindən əldə edilən qiymətli metalların, material qiymətlilərinin və ehtiyat hissələrinin qəbul-təhvil sənədləri bu akta əlavə edilir.

Sədr ______________________________________________

*(soyadı, adı, atasının adı)* *(imza və tarix)*

Üzvlər ______________________________________________

*(soyadı, adı, atasının adı)* *(imza və tarix)*

______________________________________________

*(soyadı, adı, atasının adı)* *(imza və tarix)*

______________________________________________

*(soyadı, adı, atasının adı)* *(imza və tarix)*

Maddi-məsul şəxs______________________________________________

*(soyadı, adı, atasının adı)* *(imza və tarix)*

"SOCARSS - 004.2013"
standart sənədə Əlavə 2

______________________________
*(müəssisənin, idarənin və təşkilatın adı)*

**«Təsdiq edirəm»**

______________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

______________________________
*(imza)*

«_____» ____________ 20__ il

## AVTOMOBİL NƏQLİYYATI VASİTƏLƏRİNİN LƏĞVİ AKTI

«_____» ____________ 20__ il

______________________________________________________________
*(müəsssənin, idarənin, təşkilatın adı)*

Əmlakın (qiymətlilərin) istismar vəziyyətini müəyyən etmək üçün «___» ________ 20___ il tarixli _____ №-li əmrlə təyin edilmiş daim fəaliyyətdə olan komissiya üzvləri:

Sədr ______________________________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

Üzvlər ______________________________________________

______________________________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

______________________________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

Maddi-məsul şəxs ____________________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

______________________________ öhdəsində olan aşağıdakı

avtonəqliyyat vasitəsinin istismar vəziyyətini yoxladıq:
buraxılış ili _____ , markası ______, model _______, tipi __________, qabariti_______m, yük

tutumu _______ton, yer tutumu______ nəfər, mühərrik №-si ____________________,

şassi №-si ______________, dövlət qeydiyyat nişanı ___________,

texniki pasportu________________ «____»
*(seriyası, nömrəsi, tarixi)*

olan hissələrini, bloklarını, mexanizmlərini, sənədlərini və s. Nəzərdən keçirəcək qeyd edirik:

istismar tarixi ________, iklin balans dəyəri __________ man, köhnəlmə hesablanmışdır _________ man, qalıq balans dəyəri___________ man, əsaslı təmirə sərf olunmuşdur _______________ man, istismara verildiyi gündən bəri getdiyi yol________ km,______________________________________

istismara verildiyi gündən işlənmiş motosaatların sayı; son əsaslı təmirdən sonra getdiyi yol _________ km, istismara veriləndən bəri görülən əsaslı təmirinin sayı ______, son görülən əsaslı

təmirin tarixi ________________________, xarici görkəmi ____________________________

________________________________________________________________________

*(xarici görkəmi haqqında məlumat)*

çatışmayan hissələri, qovşaqları, mexanizmləri__________________________

Əsas hissələrinin texniki vəziyyəti

| Sıra №-si | Adı | İstismar vəziyyəti (yararlı və ya yararsız) | Təmirə ehtiyacı (var və ya yox) | Yararsızlığının səbəbi | Yararlılar mədaxil edilir | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | miqdarı | mümkün istifadə qiyməti | məbləği |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| | | | | | | | |
| | | | | | | | |

Məbləğ ____________________________________________

*(yazı ilə)*

Yuxarıda göstərilən əsas vəsaitlərin (fondların) istismar vəziyyətini yoxlayarkan, komissiya belə qərara gəldi ki, bu əmlaklar (qiymətlilər) köhnəlmiş, istismar müddətini bitirmiş, tamamilə yararsız hala düşmüş və gələcəkdə istifadəsi mümkün olmadığı üçün ləğv edilsin və maddi-məsul şəxsin öhdəsindən silinsin.

Sililən əsas vəsaitlərin (fondların) tərkibi: qızıl ______ kq, gümüş ______ kq, platin _____ kq, əlvan metal _______ kq, qara metal ______ kq, cında ____ kq, yanacaq (odun) _______ kub metr, ehtiyat hissələri _______ ədəd.

Qəbul-təhvil qaimələri akta əlavə edilir.

Əlavə qeyd ___________________________________

*Qeyd:* Akt üç nüsxədən ibarət tərtib edilir və birinci nüsxə mühasibatlığa təhvil verilir.

Vahidinin (dəstinin) dəyərindən asılı olmayaraq, avtomobil nəqliyyatı vasitələri üzrə bütün hallarda əsas vəsaitlər (fondlar) ARDNŞ-nin sərəncamı əsasında bu aktla silinir.

Əsas vəsaitlərin ləğvindən əldə edilən qiymətli metalların, material qiymətlilərinin və ehtiyat hissələrinin qəbul-təhvil sənədləri bu akta əlavə edilir.

Sədr ______________________________________________

*(soyadı, adı, atasının adı)* *(imza və tarix)*

Üzvlər ____________________________________________

*(soyadı, adı, atasının adı)* *(imza və tarix)*

__________________________________________________

*(soyadı, adı, atasının adı)* *(imza və tarix)*

Maddi-məsul şəxs__________________________________

*(soyadı, adı, atasının adı)*

"SOCARSS - 004 .2013"
standart sənədə Əlavə 3

______________________________
*(müəssisənin, idarənin və təşkilatın adı)*

**«Təsdiq edirəm»**

______________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

______________________________
*(imza)*

« ____» __________ 20__ il

**ƏMLAKIN (QİYMƏTLİLƏRİN) UÇOTDAN ÇIXARILMASI AKTI**

«______»____________ 20__ il

__________________________________________________________
*(müəsssənin, idarənin, təşkilatın adı)*

Əmlakın (qiymətlilərin) istismar vəziyyətini müəyyən etmək üçün «____»_________ 20____il tarixli ______ №-li əmrlə təyin edilmiş daim fəaliyyətdə olan komissiya üzvləri:

Sədr ________________________________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

Üzvlər ________________________________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

____________________________________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

____________________________________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

Maddi-məsul şəxs ________________________________________
*(vəzifəsi, adı, soyadı, atasının adı)*

Oğurlanmış və ya naməlum şəraitdə itmiş əsas vəsaitlərin (fondların) sənədlərinə əsasən aşağıdakıları müəyyən etdik:

Nəqliyyat vasitələri üzrə:

| Əmlakın (qiymətlilərin) göstəricilərinin adı | Göstəricilər | Qeyd |
|---|---|---|
| Nəqliyyat vasitəsinin adı | | |
| Buraxılış ili | | |
| Markası | | |
| Modeli | | |
| Tipi | | |
| Qabariti | | |

| | | |
|---|---|---|
| Yük tutumu | | |
| Yer tutumu | | |
| Mühərrikin №-si | | |
| Şassi №-si | | |
| Dövlət nişanı | | |
| Texniki pasportun №-si və tarixi | | |
| İstismar tarixi | | |
| İlkin dəyəri (manatla) | | |
| Qalıq dəyəri (manatla) | | |
| Əsaslı təmirə sərf olunmuş məbləğ | | |
| Silinmənin əsası | | |

Nəqliyyat vasitələri istisna olmaqla əsas vəsaitlər (fondlar) üzrə:

| Sıra №-si | Əmlakın (qiymətlilərin) adı və nişanələri | Alış tarixi | İstismar müddəti | Balans dəyəri, manatla | Qalıq dəyəri, manatla | Silinmənin əsası | Qeyd |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |
| | **yekun** | | | | | | |

Yuxarıda göstərilən əmlakın (qiymətlilərin) mövcudluğunu yoxladıqda komissiya belə qərara gəldi ki, əmlaklar (qiymətlilər) oğurlandığı və ya naməlum şəraitdə itdiyi üçün maddi-məsul şəxsin öhdəsindən silinməklə uçotdan çıxarılsın.

Əlavə qeyd ____________________

**Qeyd:** Akt üç nüsxədən ibarət tərtib edilir və birinci nüsxə mühasibatlığa təhvil verilir.

Vahidinin (dəstinin) dəyərindən asılı olmayaraq, oğurlanmış və ya naməlum şəraitdə itmiş əsas vəsaitlər (fondlar) bütün hallarda ARDNŞ-nin sərəncamı əsasında və bu əmlakların oğurlanması və ya naməlum şəraitdə itməsi ilə əlaqədar Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, nəqliyyat vasitələri üzrə isə əlavə olaraq Baş Dövlət Yol Polisinin təsdiqedici sənədi əsasında bu aktla silinir.

Sədr ____________________

*(soyadı, adı, atasının adı)* *(imza və tarix)*

Üzvlər ____________________

*(soyadı, adı, atasının adı)* *(imza və tarix)*

____________________

*(soyadı, adı, atasının adı)* *(imza və tarix)*

Maddi-məsul şəxs____________________

*(soyadı, adı, atasının adı)*

**Vizalar:**

| | | |
|---|---|---|
| Vitse-prezident | | M.İsmayılov |
| İqtisadi məsələlər üzrə vitse-prezident | | S.Qasımov |
| İqtisadiyyat və Uçot İdarəsinin rəisi | | V.Şərifov |
| Hüquq İdarəsinin rəisi | | E.Orucov |

**Göndərilir:** ARDNŞ-nin vitse-prezidentlərinə, Baş ofisinin İqtisadiyyat və Uçot İdarəsinə, Hüquq İdarəsinə, ARDNŞ-nin müəssisələrinə.

**İcraçı:**

Hüquq İdarəsinin Hüquqi mübahisələr və müqavilələrlə iş şöbəsinin rəis müavini

V.Eyvazov
"31" iyul 2013-cü il
Tel: 10-250